

# XİDMƏTLƏRİ MİSİLSİZ OLAN ÜMUMMİLLİ LİDER

Anadan olnasının 100-cü ildönümünə toplaşdığımız tarixi şəxsiyyət, Ulu Öndər H. Əliyevin keçdiyi həyat yolu o qədər zəngindir ki, bu yolu işıqlandırmaq üçün yazılmış və yazılmaqda olan cild-cild tədqiqat əsərləri onu hələ də tam əhatə etmir.

Ümummilli liderimizin xidmətləri misilsizdir, sadalamaqla bitib tükənmir. Onun şah əsəri isə müasir, suveren, müstəqil Azərbaycan dövlətidir. Demokratik ənənələrə malik, dünyada iqtisadi və siyası gücə, həmçinin özünümüdafiə qüdrətinə malik müstəqil Azərbaycan dövləti.

Hər birimiz yaxşı bilirik ki, Azərbaycan Respublikası bu zirvəyə heç də rahat yollarla gəlib çatmamışdır.

90-cı illərin əvvəllərində sovet imperiyasının boyunduruğundan yenicə qurtulmuş Azərbaycan Respublikası ətrafındakı düşmənlərin, xain ermənilər, faşizmi özünün dövlət quruluşuna çevirmiş Ermənistan dövləti, onların daxildəki əlaltılarının vasitəsi ilə dağılmaq, yox olmaq, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdır, belə bir ağır tarixi şəraitdə xalqımızın xilaskar oğlu, Ulu Öndər H. Əliyev xalqın arzusunu gerçəkləşdirərək 1993-cü ilin 15 iyun tarixində Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmiş, 24 iyun tarixdən isə Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini icra etməyə başlamış və bununla da xalqımızın milli qurtuluşu reallaşmağa başlamışdır.

"Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram!",- deyərək ikinci dəfə ölkənin siyasi rəhbərliyinə qayıdan Ümummilli lider memarı olduğu Azərbaycan Respublikasını düşdüyü ağır siyasi iqtisadi böhran vəziyyətindən, zamanın sərt sınağından məharətlə xilas edə bilmişdir.

Qürurverici haldır ki, dövlətimiz indi də Ulu Öndərin müəyyən etdiyi siyasi xətlə onun layiqli davamçısı, "Dəmir Yumruq"lu sərkərdə-Ali Baş Komandan İlham Əliyev cənabları tərəfindən uğurla idarə olunur.

Şükürlər olsun ki, Ulu Öndərimizin yarımçıq qalmış arzuları möhtərəm

Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçir.

Üçrəngli bayrağımız Qarabağımızda-Şuşada dalğalanır. Bu baxımdan Ümummilli liderimizin ruhu şaddır.

Allah Ulu Öndər Heydər Əliyevə qəni-qəni rəhmət eləsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Yaşasın Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev!

Yaşasın Azərbaycan xalqı!

***Hamlet Abbasov***
***Hacıqabul rayon R. Abdullayev adına Qubalıbaloğlan tam orta məktəbin riyaziyyat müəllimi***

# PREZİDENT VƏ BİRİNCİ XANIM XVI "CASPİAN AGRO" VƏ XXVIII "İNTERFOOD AZERBAİJAN" SƏRGİLƏRİ İLƏ TANIŞ OLUBLAR

***Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar.***



Kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlətimizin başçısına və birinci xanıma sərgilərlə bağlı məlumat verdi.

Bildirildi ki, hər il olduğu kimi, bu il də sərgilərə iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraq göstərilir. Bakı Ekspo Mərkəzinin bütün mümkün pavilyonlarını və açıq sahəsini əhatə edən sərgilərdə rekord sayda milli və regional stendlər nümayiş olunur. Ümumilikdə sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər.

Dövlətimizin başçısı və birinci xanım sərgidə "Grow Group Azərbaycan", "Maschio Gaspardo", "New Holland", "Rostselmaş", "MySilo", "Rauch Landmashchinen", "SwissGrow", "AfiMilk", "Gowan", "Can-Pa" şirkətlərinin, Çexiyanın, İtaliyanın, Belarusun, Gürcüstanın, ABŞ-ın və Niderlandın stendləri ilə tanış oldular. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikaları, əkin-biçin aqreqatları və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Naxçıvan Muxtar Respublikasının stendi ilə tanışlıq zamanı bildirildi ki, kənd təsərrüfatı məhsullarının istehsalında ərzaq və qida təhlükəsizliyi başlıca şərtlərdən biridir və Naxçıvan fermerləri daha çox orqanik məhsulları yetişdirməyə üstünlük verirlər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldular. Burada Ümummilli Lider Heydər Əliyevə həsr olunan xüsusi təqdimat hazırlanıb. Bildirildi ki, bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Buna görə də sərgilər də məhz Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Azərbaycanda aqrar sahənin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır. Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır.

Pavilyonda, həmçinin Elmi-Tədqiqat İnstitutlarının ən son nailiyyətləri, yaşıl enerji mənbələrinə dair qurğu və məhsullar nümayiş olunur.

Burada müxtəlif yarış və müsabiqələrin qalib aqrar startapçıları tərəfindən arıçılıqda "varatoz" gənəsinə qarşı mübarizə, ənənəvi balıqyetişdirmə üsullarını hidroponik əkinçiliklə birləşdirən sistem, bioqaz, alternativ enerji mənbələrindən əldə edilmiş hidrogen qazı, ağıllı istixana idarəetmə sistemi, alaq otlarını lazer sistemi ilə təmizləyən aqrorobot, avtomobillər üçün portativ qida bloku, külək və günəş izləmə qurğuları, idarəolunan günəş panelləri, uzaqdan idarəolunan sayğaclar, külək turbinləri, iqlim stansiyası, dəqiq suvarma idarəçiliyi üçün sensor, suvarmada istifadə olunan günəş enerjisi ilə işləyən inventorlar sərgilənir.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir. Kənd təsərrüfatının intensiv inkişafı həm də aqrar sektorda innovasiyaların tətbiqindən birbaşa asılıdır. Aqrar sahələrdə innovasiyalardan istifadə günümüzün çağırışı olduğundan sərgilər kənd təsərrüfatı məhsullarının istehsalçılarına bu innovativ yeniliklərlə əyani tanış olmağa imkan verir.

Bildirildi ki, "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində KOBİA-nın dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər.

Sərgi çərçivəsində açıq sahədə kənd təsərrüfatında istifadə olunan texnikalar nümayiş olunur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərtexnika" MMC, "Agritex" MMC, "Agromotors" şirkətlərinin və Gəncə avtomobil zavodunun texnikaları ilə tanış oldular.

Qeyd edək ki, üç gün davam edəcək sərgilər çərçivəsində Aqrar İnnovasiyalar Forumu təşkil olunacaq. Forumda "Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti", "Kənd təsərrüfatında innovativ həllərə əsaslanan texnologiyalar", "Orqanik kənd təsərrüfatı", "Rəqəmsal kənd təsərrüfatı", "Yaşıl kənd təsərrüfatı" və digər mövzular müzakirə ediləcək.

"InterFood Azerbaijan" sərgisi çərçivəsində dekorativ yeməklərin kompozisiyasından ibarət "Qida - sənət əsəri" sərgisi, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Qızıl Şah - Qızıl Yüzlük" III Milli Kulinariya Çempionatı da təşkil ediləcək.



## *PREZİDENT İLHAM ƏLİYEV:*
# ERMƏNİSTANIN SÜRƏTLƏ SİLAHLANMASI YENİ TƏHLÜKƏLƏR YARADIR

Bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Hindistanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edərkən bildirib.

Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını deyən dövlətimizin başçısı qeyd edib ki, əgər doğrudan da Ermənistan Azərbaycan ilə sülh istəyirsə onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır.

Azərbaycan Prezidenti vurğulayıb ki, Ermənistanın bu siyasəti bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

# ÜST: COVID-19-DAN ÖLÜMLƏR YEKUNDA 336 MİLYON ÖMÜR İLİNİN İTİRİLMƏSİ İLƏ NƏTİCƏLƏNİB




COVID-19-dan ölümlər 2020-2021-ci illərdə yekunda 336 milyon ömür ilinin itirilməsi ilə nəticələnib, səhiyyənin inkişafında tərəqqi dayanıb. AZƏRTAC xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yeni hesabatında bildirilir.

Hesabatda qeyd olunur ki, 2020-2021-ci illərdə COVID-19 dünyada ömür davamlılığı prosesində heyrətamiz itkilərə səbəb olub. Pandemiya ilə bağlı ölüm hallarının artması yekunda 336,8 milyon ömür ilinin itirilməsi ilə nəticələnib ki, bu, ortalama hər artıq ölüm üzrə 22 ilə bərabərdir.

Hesabat müəllifləri xatırladıblar ki, 2000-ci ildən 2019-cu ilədək ömür uzunluğu 67-dən 73 yaşadək yüksəlib. Lakin koronavirus pandemiyası sağlamlıqla bağlı bir çox göstəricilərdə geriləməyə səbəb olub və yüksəkkeyfiyyətli tibbi xidmətə əlçatanlıqda qeyri-bərabərliyə gətirib çıxarıb. Nəticədə, malyariya və vərəm xəstəlikləri üzrə göstəricilərin yaxşılaşması tendensiyası mənfi istiqamətə yönəlib.

Hesabatda qeyd olunur ki, öz növbəsində, qeyri-infeksion xəstəliklərin səbəb olduğu ölümlərin sayı durmadan artır. Hər il baş verən bütün ölüm hallarının dörddə üçü bu xəstəliklərlə bağlıdır. ÜST-nin proqnozlarına görə, bu tendensiyanın qalacağı təqdirdə, cari yüzilliyin ortalarına doğru hər il qeydə alınan 90 milyon ölüm halının təqribən 86 faizi qeyri-infeksion xəstəliklərin payına düşəcək.

ÜST tütün və alkoqol istehlakı ilə bağlı risklərin azaldılmasında inkişafın yetərsiz olduğunu qeyd edib. Bundan başqa, təşkilat piylənmənin geniş yayılması ilə bağlı həyəcan təbili çalıb. Hesabat müəllifləri 2015-ci ilin nailiyyətləri ilə müqayisədə əsas tibbi xidmətlərə əlçatanlığın genişlənməsinin yavaşlaması və səhiyyədə maliyyə çətinliklərinin azalmasında tərəqqinin olmaması ilə əlaqədar da narahatlıq ifadə ediblər.

# ƏDLİYYƏ NAZİRİ DAŞKƏNDDƏ BEYNƏLXALQ FORUMDA İŞTİRAK EDİB

***Mayın 17-18-də Özbəkistanın paytaxtı Daşkənd şəhərində "Fundamental hüquqlar əbədi dəyərlər kimi" mövzusunda III Daşkənd Hüquq Baharı Beynəlxalq Forumu keçirilib.***

Bu barədə Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Dünyanın 20 dövlətindən 700-dək nümayəndənin, o cümlədən yüksək səviyyəli hökumət rəsmilərinin, ədliyyə, məhkəmə və digər orqanların rəhbərlərinin, nüfuzlu ekspertlərinin və elm xadimlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin qatıldığı forumda Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov nümayəndə heyəti ilə iştirak edib.

Tədbiri giriş nitqi ilə Özbəkistanın ədliyyə naziri Akbar Taşkulov açıb. Plenar və bölmə sessiyalarla keçən forumda insan hüquqlarının qorunması, hüquqi sahədə İKT-lərin tətbiqi, məhkəmə ekspertizasının inkişafı, mediasiya, korrupsiyaya qarşı mübarizə, dövlət xidmətlərinin göstərilməsi və sair aktual məsələlər müzakirə olunub.

Plenar sessiyada çıxış edən ədliyyə naziri F.Məmmədov dost və qardaş Özbəkistanda keçirilən mötəbər forumun müsbət təcrübələrin mübadiləsi və ikitərəfli əlaqələrin genişləndirilməsi baxımından mühüm əhəmiyyətini qeyd edib, insan hüquqları kimi ümumbəşəri dəyərlərə daim sadiq olan Azərbaycanın təcrübəsi ilə bölüşüb.

Bildirib ki, ölkəmizdə insan hüquqlarının təminatı müstəqil dövlətimizin banisi, bu il Azərbaycanda və xaricdə, o cümlədən Özbəkistanda 100 illiyi geniş qeyd olunan Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlətimizin ali məqsədlərindən biri kimi bəyan edilib.

Nazir BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinin əsas hədəflərindən olan insan hüquqlarının və qanun aliliyinin təminatında müstəqil məhkəmə hakimiyyətinin mühüm rolunu qeyd edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə aparılan mütərəqqi islahatlar, ədliyyə və məhkəmə fəaliyyətində rəqəmsal innovasiyaların tətbiqi, əhaliyə keyfiyyətli dövlət xidmətlərinin göstərilməsi barədə ətraflı məlumat verib.

Həmçinin yüksək texnoloji müasir məhkəmə infrastrukturunun yaradılması, "Elektron məhkəmə" sisteminin tətbiqi, hakimlərin ən şəffaf seçimi, dövlətimizin humanizm siyasəti, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması, fəaliyyətin digər sahələrində də müasir texnologiyaların, o cümlədən elektron nəzarət vasitələrinin geniş tətbiqi, "Dünyanın Ən Qabaqcıl Dövlət Xidməti" kimi qiymətləndirilən "ASAN xidmət"in səmərəli fəaliyyəti maraqla qarşılanıb.



Nazir iştirakçıların diqqətini torpaqlarımızın 30 illik işğaldan sonra azad olunaraq büsbütün dağıdılmış həmin ərazilərdə nəhəng bərpa-quruculuq işlərinin aparılmasına və soydaşlarımızın öz doğma yurdlarına qayıtmasına, bununla onların kütləvi pozulmuş hüquqlarının bərpasına cəlb edərək, qardaş Özbəkistanın Azərbaycana dəstək olaraq Füzulidə müasir böyük məktəb binasının inşa etdiyini məmnunluq hissi ilə vurğulayıb.

Forum çərçivəsində, həmçinin Özbəkistan, Qırğızıstan, Sinqapur və digər ölkələrin ədliyyə orqanlarının və beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlər keçirilərək faydalı danışıqlar aparılıb.






Səfər zamanı özbəkistanlı həmkarla Ədliyyə Nazirliyində keçirilmiş görüşdə dost və qardaş ölkələrimiz arasında tarixi köklərə malik əlaqələrin inkişafında ölkə prezidentləri İlham Əliyevin və Şavkat Mirziyoyevin xüsusi rolu vurğulanıb, hüquqi əlaqələrin genişləndirilməsi məmnunluqla qeyd edilib.

Özbəkistanın ədliyyə naziri oxşar tarixə malik ölkələrimizin keçdiyi inkişaf yoluna toxunaraq ötən ilin dekabrında Azərbaycana səfəri zamanı respublikamızın hərtərəfli tərəqqisinin və aparılan islahatların real nəticələrinin şahidi olduğunu vurğulayıb.

Görüşdə hər iki dövlətdə həyata keçirilən ədliyyə islahatları və tətbiq olunan yeniliklər barədə faydalı fikir mübadiləsi aparılıb, ikitərəfli əlaqələrin inkişafına maraq göstərilib.

Əldə olunan razılığa əsasən Azərbaycan və Özbəkistan Ədliyyə nazirlikləri arasında innovasiyaların, o cümlədən elektron xidmətlərin tətbiqi, hüquqşünasların tədrisi, qanunvericilik, məhkəmə ekspertizası və digər sahələrdə təcrübə mübadiləsinə dair konkret tədbirləri nəzərdə tutan yeni Əməkdaşlıq Proqramı imzalanıb.

Səfər çərçivəsində Azərbaycanın nümayəndə heyəti, həmçinin Özbəkistan Ədliyyə Nazirliyinin müxtəlif sahələrdə fəaliyyəti, o cümlədən media mərkəzi və ədliyyə tarixinə həsr olunan muzeylə, eləcə də yerli ədliyyə orqanları ilə tanış edilib, habelə Azərbaycan diasporunun nümayəndələri ilə görüşərək həmvətənlərimizin qayğıları ilə maraqlanıb.

Tədbirlərdə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev iştirak edib.